# Durna çırağının kölgələri...



■ Şöhrət Namazova

**Qarşımda Laçın torpağının şair oğlu İlham Qəhrəmanın bir kitabı var. Kitab "Sevgi durna çırağıdır" adlanır. Vərəqlədikcə daha çox düşünürəm və əsirlikdə qalan dağlarımızın buludları kimi doluram.**

Bəşəri duyğuların ən gözəli və ən ilahisi sevgidir. Bu sevgi ana bətnindən başlayır və ta qəbir evinə qədər həyatımızın qayəsi olur. Kitabı vərəqlədikcə sevgi dediyimiz bu nə isə nə məni məndən alıb Ana yurduma Laçınıma apardı. Dağlarımızın məğrurluğunu, çöllərimizin gül-çiçək naxışlı gözəlliklərini, dağ yellərinin əsim-əsim ötməsini, qoyunquzuların talalara yaraşıqlı-yaraşıqlı yayılmasını gördüm, bu sevginin gözəlliyindən ürəyim yerindən oynadı. Bacalarından çörək ətirli tüstülər çıxan obalarımızın bizimlə keçən zamanlarını andım. Bu şeirləri oxuduqca köçkünlük və ayrılıq faciəsinin fəlsəfəsini dərk edərək nənəmin bayatıları təki inildədim. Şairin "Nənəmin üzünə baxa bilmirəm" şeirinin ağır təsirindən mən də yumağa döndüm.

*Nənəmdən bir dastan bağlasam azdı -*
*Oğlunun, qızının toyu yol azdı.*
*Yay gəlir kövşənə ayran aparmır,*
*Saymır cücəsini neçə payızdı, -*
*Nənəmin üzünə baxa bilmirəm...*

*Bircə gecəsi də Laçınsız olmur,*
*Hər gecə o yurda, oymağa dönür.*
*Neçəki həsrətin yolu uzanır*
*Nənəm yumrulanıb yumağa dönür,*
*Nənəmin üzünə baxa bilmirəm.*

Yurd sevgisi, Vətən sevgisi, torpaq sevgisi, ilk sevdalı baxışların donub qaldığı o yerlərin sevgisi şairin könül dünyasının durna çırağıdır. Durnalar da qərib ellərə köç edəndə dönüb arxaya, doğma yerlərin sevgi çırağı olan qarlı dağlara sarı boylanarlar. Bir də baxdım ki, kitab məni elə tutub ki, səhifələrindən çıxa bilmirəm. Bir anda yaddaşımdakı doğma gözəlliklər sanki canlandı, vətənim Azərbaycanın hər küncbucağı gözlərim önündən keçdi. Gözlərim qəlbimin həyəcanlı duyğularının qopardığı tufandan sellər kimi yaşlar tökdü. Bu yaşlar o səhifələrdəki sətirlərdən qəribqərib baxan ana yurdum Laçının düşmən ayağı altında qalan torpaqlarına səpələndi. Qulaqlarıma ruhumu parça-parça edən bir səs gəldi. Həm də elə bir doğma səs ki, cazibəsi məni öz dünyamdan alıb yerindən oynatdı. O səsin ardınca getdim. Bir də gördüm ki, Tanrı qüdrətindən yaranan bu səs məni Həkərinin sahilləri ilə gəzdirib Zəngəzur dağlarının sinəsindəki zər çiskinli duman kimi süründürür.

*Bir bulaq var idi -*
*mən ondan hər il*
*Böyürtkən dəyənə*
*görüş alardım.*
*Bir daşı dizimin*
*altına qoyub,*
*Əyilib üzündən*
*öpüş alardım...*

Bilirsinizmi, bu səs bir vətən oğlunun itirdiyi böyük bir şennikli elatının qəm sədasıdır. O insan bəlkə də bəşəriyyətin bütün dərdsərini, zəngin hisslər aləmini öz çiyinlərində daşıyan, həm də uca Tanrının özünün seçib-saydığı şairlər sırasında dayanan və bütün şairlər kimi də çətin həyat yoluna davam edən İlham Qəhrəmandır.

*Qarşıda - talada*
*atlı göründü,*
*Dedim qayıq üzür*
*çiçək gölündə.*
*Çoban sürüsünü*
*yayıb sinəyə,*
*Özü tütək çalır*
*dağın telində.*

Şairin dərin hisslər ilə çəkdiyi və sehrli sözlərin rənglər vurduğu bu tablo qarşısında heyrət özü də heyrətdə qalır. Zirvələri ərşə dayanan, ulu ərənlərimiz kimi boy-boya qol-qanad tutan və meşəli yenişləri, yoxuşları ilə əzəmətlənən dağlarımız şairin sözlərində hərəkətlənir. Çiçəkli çöllər dumduru dağ gölləri kimi dalğalanır. Bu tablo bizi duyğulandırıb fikirlərə qərq edir. Vətən gözəlliyinin füsunkarlığını xəyalən bizə, yurdundan ayrı düşən köçkünlərə ustalıqla yaşadır. Şair qəlbinin ağrısını duyub onun əzabının ölçüsüzlüyünü anlamaq üçün onun "Vətən oxşaması" şeirini dinləmək bəsdir. Bu əsil milli-mənəvi dəyərlərimizin yanğı harayı olan oxşamadır.

Şair elə yana-yana Vətənə müraciət edir ki, sən də od tutub yanırsan. Sən düşündüyünü, sən demək istədiyini, sən demək istədiyini bu oxşamada şair elə oxşayıb, elə sorur ki!.. Həm də İlham Qəhrəman Vətənə sevgisini ilahi eşq səviyyəsində ürəyini dağıdıb oxşayır, ulularımızın səsi ilə inildəyib oxşayır. Gözlərimin önünə obalarımız gəlir. Laçının laçın elləri gəlir, ağsaqqal qocaların və ağbirçək nənələrin yanıqlı havalı, doğma ləhcəli oxşamaları gəlir.

*O kimdi qeybdən gəlir,*
*Gecə biznən hesab çəkir?!*
*Vətən, sənə olan sevgim*
*İçimdə əzab çəkir...*

Şair bir yandan azad olub müstəqilliyini qorumağa çalışan Vətənin, o biri yandan böyük nifrətlərə qurban gedərək Qarabağı itirməsinə dözmür. Bu dözməyin özü elə dözənlər üçün ölümdən betərdir. Milli ruhumuzun baş iqamətgahı olan Qarabağ, mədəniyyətimizin fəxarəti olan Şuşa, əlçəkilməz istinadgahımız olan Kəlbəcər və Laçın bu oxşamanın laylaya yatımlı bəndlərinin arasından boylanırlar. Böyük vətəndaş yanğısı şairi yandırıb tökür. Bu sətirlərin suallarla dolu harayında Azərbaycanımın əsrlərin o taylarından, bu taylarından eşidilən dahi şairlərinin səsi eşidilir. Bu səslər milli qürurumuzun hiddətli hayqırtıları kimi zamanın vaxt axınlarından keçib şairin qəlbinin damcılayan qanı ilə yazdığı sətirlərin üstündə gurlayır.

Məyus görkəm, kəm taleynən
Mən sənin tayınam, Vətən.
Qoy dərdlərin mənə gəlsin,
Mən dərdə qayımam, Vətən.

Məşhur rus ədəbi-tənqidçisi V.Q.Belinskinin belə bir kəlamı var. "Həqiqət yalandan kömək ummur". Düşünürəm ki, bu həqiqət elə mahiyyətdir ki, gün işığının ta özü kimidir. Hər kəs həyat mənbəyi olan o işığa sarı əyilməlidir, lakin o işığın düz özünə baxacaq qədər mümkünatlı deyil. Günəşə yalnız ani baxıb gözümüzü çəkə bilərik. Həqiqətin əsil mahiyyəti də elədir. Hamı həqiqətə can atır, düzü bilmək istəyir. Bizim Vətən həqiqəti kimi. Biz hələ də o həqiqətin gün işığına baxa biləcək insanlar axtarışındayıq. V.Q.Belinskinin belə bir kəlamı da var. "İnsan təkcə bilmədiyindən qorxur". Şairin qəlbimizdən keçən sözləri necə də bilib deməsi özümüzü də məəttəl qoyur. "Yurd səsi" bizi havalandırır.

*And olsun*
*Sürünən Seyidin*
*dizin-dizin*
*süründüyü torpağa.*
*And olsun*
*Laçında yıxılan*
*keşiksiz bayrağa*
*getmir qulağımdan*
*gecələr göyə millənən*
*qurd səsi,*
*yurd səsi...*

Şairin "Yurd səsi" şeiri sanki görüntülü film kimi canlanır. Bu görüntülər şairin ilham dünyasının durna çırağının işığından süzülən kölgələrdir.

XVII əsrin böyük ingilis nəzəriyyəçi filosofu Frensis Bekonun belə bir fikri var: "Gözəl sifət səssiz təqdimatdır." Mən bu fikri bir az uyğunlaşdırıb gözəl şeir səssiz təqdimatdır, demək istəyərəm. Şeir yazmaq ilahi vergidir. Tanrı şairləri seçir və onları üstünlükləri ilə təqdir edir. Şairlər əsil ilahi missiya daşıyıcılarıdır. İlahi kəlamlar daşıyıcılarını duymaq, yazdıqlarını dərk etmək, ilahi sehrin qüdrətini anlamaq isə biz şeirsevənlərin bacarığıdır.

Şair xəyalının gücü çox geniş və əhatəsiz olurmuş. Bu əhatəsizliyin sonsuzluq uclarında isə nə hikmətlər yerləşir, bir Allah bilir. Filosoflar kimi şairlər də həqiqətin axtarışında və ilkin mahiyyətin sorağında dolanaraq sözün qüdrətindən güc alırlar. Sadəcə mahiyyəti bilmək filosoflara və şairlərə bəs eləmir. Filosof nəyi anladığını dərk etmək istəyirsə, şair də dərk etmək istədiyinin gözəlliyini görmək istəyir. Şairə həyatın hər anı, hər görüntüsü bir məna ifadəsi və ilham verir. Bəzən də görmək istədiklərini real dünyamızda tapa bilməyib ruhi sarsıntılarla üzləşən söz ustaları hisslərdən kənar aləmlərə üz tuturlar. Reallıqların təhrif dünyası olan yuxular aləmi bunlardan biridir. İlham Qəhrəmanın "Yuxular" adlandırdığı trilogiya bir şairin yaşadığı şair həyatında çəkə bildiyi qədər çəkdiklərinin və çəkə bilmədiyi qədər çəkmədiklərinin nur kimi işıqlı ifadəsidir. Yəni yuxular aləminə düşən durna çırağıdır.

*Əyan oldu mənə sonuncu sirrim,*
*Qalmadı daha bir dərdim dünyada,*
*Öldüm - ölümü də gördüm dünyada.*
*...Gördüm ki, ölmüşəm səhərə yaxın,*
*Bir yol qırağıdı - şəhərə yaxın.*
*Keçir dörd yanımdan -*
*axır adamlar,*
*Boylanır... harasa baxır adamlar.*

Şair ruhu bu insan axınlarının bəlkə də tam ortasında, bəlkə də qırağında, bəlkə də nə bilim harasındasa ölüsünü uzalı görür və dörd yanından sallanıb keçənlərə heyrətlə baxır. O axının içində onun öz qardaşı da, dostu da, qonum-qonşusu da, tanışları da keçirlər. Amma biri də dönüb gözünün ucu ilə ortada qalan bu nəşə baxmır. Zamanın haqsız uyğunsuzluqlarından bezən şair sanki laqeydləşib kütləşən baxışlara üsyan edir. Soyuq münasibətlərin isti əlaqələri kəsdiyi mühitə irad tutur. Hətta şair ruhu ölü canına heyfi gəlsə də, məəttəl-məəttəl özünə təskinlik verir. Laqeyd olmağın ruhsuzluğu onu incitsə də toxtaq olmağa çalışır. Bədəbəddə diriykən ölü kimi də yaşamağın mümkünlüyünü təsdiq etməli olur. Çünki bu yaşamın adı ziddiyyətlər dünyası olan həyatdır. Nə etməli, ziddiyyətlər özü də bir naxışdır, düzənli harmoniyanın ilmələridir.

*Deyələr ölmüsən,*
*qan olmayıb ki,*
*Toxtaq ol,*
*ölmüsən,*
*canın sağ olsun!*

**YUXU 2**

İnsan həyatı hərəkətsiz təsəvvür edilməzdir. Harada hərəkət varsa, orada həyat vardır. Lakin bu hərəkətlərə təkan verən isə motiv adlandırdığımız izahedici məqsədlərdir. Şairin bir adi insan kimi öz yaşam dünyası var, bir də adilikdən çox yüksəklərdə və əlçatmazlıqlarda olan xəyal dünyası var. Bu adi dünyanın hüdudları ailədən başlayır, qohum-qardaşlara və dostlara, sosial mühitə, Ana Yurda və ən uzağı Yer kürəsinə qədər çata bilir. Bu adiliyin öz gözəlliyi və gözəlliklərin araya qoyduğu öz çətinlikləri var.

Davamı səhifə 19-da

*Əvvəli səhifə 18-də*

Bu həyat qaçılmazdır, tale dediyimiz o qismət yüklü qədər dünyasıdır. Şair ruhu bu adiliyə sığmaz. Şair ruhu laməkanlığı sevir. Azadlıq ideyası şairin xəyali dünyasının Zöhrə ulduzudur. Şair bu möhtəşəm azadlığı ruhən yaşaya bilir. Lakin əsil həyatının yan-yörəsində qoluqanadı bağlı olan azadlıq imkanlarını görə bilməyəndə, ilahi sözlərin dolduğu ürəyi köksünə sığmır. Əlacı öz iç dünyasına və hisslərindən kənarda olan tanrısına qalır. Adi dünyasındakı gözəlliklərin acı təəssüratını yuxu aləmindəki gözəlliklərin şirin xülyasında dəyişdirən şair elə şeir filmi yaradır ki, baxdıqca heyran olursan. Yuxusunda şeytana uyaraq xəyali bir qızın ardınca süd dumanlarından keçib sehrli bir aləmə düşən şair bir də görür ki, ulduzların arasındadır. Həm də hər şey onun öz həyatının görüntülərinin tərsinədir. İtirdiyi Laçın kimi torpağı genişlənib kainat boyda olubdur. Özü özünü elə nəhəng hiss edir ki, kölgəsi ulduzların üzərinə düşür. Bəlkə də şair görünməyən böyüklüyünü, qəlbinə sığışmayan arzularının hüdudsuzluğunu bizlərə göstərmək üçün yuxu danışır. Özünü bizə gördüyümüz kimi yox, görməli olduğumuz kimi tanıtmaq istəyir. Dünyanın özü boyda ağır yükündən yuxarılarda olan genişliyin, sonsuzluğun, azadlığın, sakitliyin və cənnət misallı doğma torpaq ətrinin xiffətini çəkir. Şair qəm yeyə-yeyə Vətənli, analı-atalı,

*Sərçələr saçımda gecələyirlər.*

Dəli dağın, Qırxqızın, ya da İşıqlı dağının bir qaşında dayanıb yağıların yağmaladığı Ana Yurdun təbiətinə böyük sevgisini şair özünün şeir dünyasının durna çırağı ilə işıqlandırır. Məncə durna çırağı İlham Qəhrəmanın yaradıcılığının fəlsəfi nurudur. Bu nurun şəfəqlərində orta əsrlərdə Şərqdə geniş yayılmış İşraqilik fəlsəfəsinin işıqları sayrışır. İşıq və ona sevgi varsa, o işığın kölgələri olan həyatımızın hadisələri də könül dünyamızın istəklərinə uğun olmalıdır. Lakin həyat yaşam və mübarizələr meydanıdır. Bu meydanda mübarizə edənlər qalib də ola bilər, məğlub da ola bilər. Mübarizə etməyənlər isə heç vaxt qalib ola bilməz. Əgər işıq varsa, onun uğrunda mübarizə etməyə dəyər. Vətən boyda Nur üçün isə ölüm varsa, ölməyə dəyər.

Şairin yuxusundakı dumanlıqlarda dolandıqca bir də baxırsan ki, kənd uşaqları dağların sinəsində qoyun-quzu harayında, at belində çapmağında, şəlalələr altında oynaşmağında, dəcəl-dəcəl qaçışmağındadırlar. Sən də oturmusan bir xınalı daş üstündə və xiffətini dağıdan xəyallar dünyasındasan. Ey böyük Məna, sən nə qədər bizdən uzaqsan?!. İlham Qəhrəmanı oxuduqca nə edəcəyini düşünürsən. Bu qədər yanğının min bir rəng alaraq necə dəyişilmələrlə insanı bir mənaya gətirə bildiyinə heyrət edirsən. Bu mənanın adı İnsan kimi İn-

*Bu karvan elə gedir,*
*Deyərsən elə gedir.*
*Yönü Laçın olmalı,*
*Bəs niyə belə gedir...*

Bu bayatını isə mən söylədim. Doğrusu şairin şeirlərindəki doğma səslər, müqəddəs duyğular, ilahi arzular məni mütəəssir etdi. Şair İlham Qəhrəman da yumruğa dönən əlini başı üstündə qaldırıb elləri haraylayır. Gedənlər də elə gedir, elə gedir ki, sanki Həkəri aşıb-daşıb, sel hamını ağzına alıb.

*Başımı götürüb çıxacam evdən,*
*O əsir dağları deyib gedəcəm.*
*Yoluma yeməyə çörək qoymayın,*
*Yol boyu həsrəti yeyib gedəcəm.*

"Gedəcəm" şeirini hər köçkün insan düşüncəsindən ötürüb, göz yaşlarından süzdürüb, dilindən havalandırıb özünü dəliyə dönən görər, havalanar. Bu elə qubardır ki, çəkənlər bilər. Obası, eli, evi, əzizləri, yaşanan günləri yadına düşən köçkünün başına hava gəlməsin, neyləsin. Mənə biriniz deyin, axı neyləsin?!

*Nə vaxt qayıdarıq, ömür yarıdı,*
*Sənin nübarından kimlər yarıdı?*
*Qardaşım qara tut susuz qurudu,*
*Bu gecə evimiz yadıma düşdü.*

# Durna çırağının kölgələri...

sevdalı zamanların xiffəti çəkir. Bu sevgi ilahi eşq olub onu Cünunlaşdırır, Tanrıya doğru boylandırır, yerdən ayırır və məkansızlaşdırır. Şair həsrətinin dəlisi olur.

*Uçurdum, -*
*Uçduqca yol aparırdı,*
*Nə bilim, bəlkə də hal aparırdı...*
*Elə bil qız mənim tanışımıydı,*
*Elə bil min ildir sevirdim qızı.*
*Baxıb gülümsəyir xeyir-duayla,*
*Başımın üstündə Zöhrə ulduzu.*
*Gördüm gün çönübdü - tərsinə düşür,*
*Kölgəm ulduzların üstünə düşür.*

İkinci yuxusundan ayılan şair üzünü güldürən və ağrılı hisslərindən kənar olan dünyadan yenidən gündəlik qayğıların xaotik dünyasına dönür. Əslində, bu yuxu ideal həyat arzusunun simvolik ifadəsi kimi şairin narahat ömrünün amalıdır. Şair oxucusu ilə elə uyumlu, yatımlı, su kimi axıcı və dumduru ifadələrlə söhbətləşir ki, oxuduğunu hey oxumaq istəyirsən. Yorulmadan sözlərin axınına qoşulub sən də şeirləşirsən.

**YUXU 3**

Bu yuxusunda ömrün dolaylarından keçib, yurdundan və bütün doğmalıqlarından uzaq olan şair piranıləşir. Nə yaman olurmuş torpaq həsrəti! Bu həsrət şairin gözlərinin kədər rəngindən başlayır, səs hüznündən axır, saçlarının ağ cığırlarında sürünür, nəfəsindən od tutub yanan ciyərinin tüstüsü kimi çıxır... Vətən timsallı bir torpağa, dağa, ağaca, şəlaləyə dönür. Dünyaya, insanlığa bir haray, çağırış olur. Şair bu həsrətin əlindən tutub körpələrin dərdini çəkir, köçəri quşlara həsəd aparır, leyləklərin həyat fəlsəfəsini dərk etdikcə özü də onlardan biri olmaq istəyir. Özünü itirdiyi Vətən əmanəti kimi təbiətlə eyniləşdirir. Şairin fikirlərində mənə elə gəlir ki, orta əsrlərin panteist fəlsəfəsinin ətri hiss olunur.

*Gördüm ki, özüməm pirani yaşda,*
*Çıxıb dayanmışam bir uca qaşda.*
*Saqqalım sallanır şəlalə kimi,*
*Körpələr mənimlə əylənib gedir.*
*Tutub saqqalımdan dəcəl uşaqlar*
*Saat kəfkiri tək yellənib gedir.*

*Məni ağac bilib köçəri quşlar*
*Çiynimə qonurlar nəfəs dərməyə.*
*Gedəndə sözümü höccələyirlər.*
*Leyləklər başımda yuva bağlayır,*



san olmaq, halal insan olmaq, insan kimi də ölməkdir. Bəşəriyyətin insanlıq fəlsəfəsinin bu zamanda bəşəri sevgidən nə qədər uzaqlaşdığını və bu sevgisiz dünyanı fəlakətlər gözlədiyini şair qəlbi həssaslığla duyur. Bu sevgisizlik hər an bizi bizdən ayırır, əli əldən qoparır, ümidi qəlblərdən üzür. Yuxunun həyəcanı adamı elə çulğayır ki, gözlərin sətirlərə dirəşib durur.

*Cibimdə bir ilan yuva eyləyib,*
*Yaz girdi yuvada yumurta qoyur,*
*Yay girdi bir sütül bala çıxardır.*
*Sonra da qolumu yola oxşadıb*
*Balasın qolumda yola çıxardır.*
*Çiynimə qalxanda bu körpə ilan*
*Quşları yarpaqtək uçurur məndən.*
*Quşların səsinə diksinib baxan*
*Körpə uşaqları qaçırır məndən.*

Əslində, bu ilan taleyimizin bizə yaşatdığı bir ömrün qarşılaşdığı qəbahətlərdir, qarğaşalardır. Şair onu izləyən qəbahətlər adlandırdığımız hər acının, çətinliyin, faciənin, itkinin, ayrılığın və həsrətin əlacı olan fəzilətlər axtarışındadır. Nənələrimizin nənələrindən eşitdiyi və bizlərə etdiyi alqışın səsi qulaqlarımızda cingildəyir. "Bala, Allah səni ilan ağzından qurtarsın".

*Əl deyirəm, əl tərpənmir,*
*Dil deyirəm, səsim gəlmir.*
*Məni ilanın ağzından*
*Almağa bir kəsim gəlmir.*

Nə deyim, dərdimi şəlalənib yükümün ağırlığını çəkə-çəkə haralara gedim. Bu yük əlindən yurdu gedən hər bir köçkünün çəkəcəyi yükdür.

Bir oxucu kimi İlham Qəhrəman şeirlərini oxuduqca söz dünyasının gözəlliyindən heyrətə gəlirəm. Şairlər nə qədər çətin bir həyat yolu keçsələr də, onlar söz dünyasının əsil fatehləridirlər. Söz dünyası da hüdudları sonsuz olan və getdikcə gedilən geniş bir aləmdir. Hər şair o dünyanın bir yerinə qədər gedib çata bilir. O dünyanın sərhədləri yalnız şairlər üçün açıq ola bilir. Biz oxucular insanlıq üçün ilahi lütf olan şeirlər dünyasını yalnız şairlər vasitəsi ilə tanıyırıq. Bu mənada şairlər xalqın ən seçilmiş və sevilmiş insanlarıdır. Şairin şeirləri bugünkü Laçın gənclərinin Vətənə çağırış vərəqləri olmalıdır. Gənclərimiz vətən sevgisinin gözəlliyini və möhtəşəm böyüklüyünü İlham Qəhrəman şeirlərində gördükcə bu sevginin fədailəri olmalıdırlar.

*Sənin dağında, dərəndə*
*Görən məndən nəyim qalıb?!*
*Mən sənsiz dəliyəm, bircə -*
*Çöllərə düşməyim qalıb.*

Həsrətin gözəlliyinin rəsmi belə olarmış. Mən sənsiz dəliyəm, dəli... "Laçın ağısı" adlanan bu şeiri bütün Laçınlılar oxumalı və əzbər bilməlidir. Dərdimizin dərdi elə özümüzü bilməməkdir. Laçın Azərbaycan torpağıdır və o torpaq coğrafiyamızın ən gözəl bəzəyidir. Laçın ağısı nənələrimizin dilinin yanıqlı harayı kimi ruhumuzu yer-yerindən oynadır.

*Bu şəhərdə dustaq mənəm,*
*Haram var, hara gedərəm.*
*Dostlar kənddən danışanda*
*Mən ölüb yerə girərəm.*

Söz də dərdlənəndə yorulur. Qəm-kədər də söz dünyasının dumanıdır, çiskinidir, çənidir. Söz fəryadları, harayları, üsyanları da sözün canını alır, yerlə yeksan edir. Sözün bitdiyi yerə çatanda başın əyilir, gözlərin sözlərin özündən çəkinir, düşünürsən. Amma hər son bir başlanğıca vəsilədir. Hər son mütləq hədd deyil. Hələ gediləcək bir yol üstündəyik. Söz də dirəşəndə qüvvətlənir və yenidən ilahi çağınşa dönür. İlham Qəhrəman, yazdığınız hər şeir, hər bənd, hər sətir bizə həyatın ta özünü göstərir.

*Gözümdə qollu-budaqlı*
*Bir həsrət bitər, qardaşım.*
*Xəyalıma kim əyləşsə,*
*Laçına gedər, qardaşım.*